# Tut ağacının kölgəsi

*hekayə*



Xəqani Əhmədov



Ətrafda dəhşətli sakitlik hökm sürüdü. Arabir kəndin ayağında asfaltda şütüyən maşınların səsi eşidilirdi, vəssalam. Hər kəs bir saat da olsa qarsıcı istinin əlindən kölgə tapıb dincəlmək istəyirdi. Günortanın dözülməz istisi həyətdəki qab-qacağa, vedrə-qazana ehtiyat üçün yığılmış içməli suyu da qızdırıb qana döndərmişdi. Yollar, izlər qovrulub külə dönmüş, tək-tük, orda-burda gözə çarpan alaq otları da toz-torpağın içində görünməz olmuşdu. Günorta, nahardan sonra üzüm sahələrinə qayıtmalı olan kənd adamları günün dönməsini gözləyirdilər...

Günorta kələsərdən bir-iki saatlığına evə dönmüş Fatma ana toyuq-cücəni "cibalayıb" dən vermək istəyirdi. Həyəti iki yerə bölən toxunma dəmir setka aşağıdan sökük olduğundan balaca toyuq cücələri qapı-bacaya səpələnmişdilər. Fatma ana əlindəki qabı bir kənara qoyub başının yaylığını açıb aşağı-yuxarı yelləyərək deyinə-deyinə cücələri bir yerə yığmağa çalışırdı. Səhər obaşdannan onsuz da kələsərdə ləliy idi, balaca toyuq cücələri də bir tərəfdən onu yorub əldən saldılar; üst-üstə yığılmış taxtaların, təndir üçün sahədən dartıb daşıdığı tənək çırplarının arasına girərək sanki onunla gizlənpaç oynayırdılar.

O, toyuq-cücəni birtəhər yer-yurd edib içəri keçdi. O vaxt, yetmişinci illərdə Cəbrayıldan bu aran rayonuna - Jdanova köçəndə özləri ilə gətirdikləri qaz peçini yandırıb xırda bir yemək qazanını odun üstünə qoydu. Üç gün əvvəl böyük qızı Şüşənin və kiçik oğlu Xasayla ekiztay olan Xanımın köməkliyi ilə bişirdiyi yuxa da bitmək üzrəydi (allah üzünə baxmışdı ki, qızları uzağa getməmişdi, qonşuluqda hərəsi bir ev olmuşdular, bir kömək lazım olanda hər işinə əl atırdılar). Un kisəsində nə qədər un qaldığını fikirləşə-fikirləşə yan otağa keçdi. Bayırdan gələn hənirə Fatma nənə fikirdən ayıldı. Gələn böyük oğlu Murtuza idi. O, içəri keçən kimi anasını qucaqlayıb öpdü.

- İsti səni də yordu, ay nənə?

- Hə oğul, yaman istidi. Bu istidə heç toyuq da başını kölgədən çıxarmaq istəmir. Mən də elə indi gəldim kələsərdən. İstəyirdim ki, qızları çağıram, işə gedənə kimi bir-iki büküm çörək salaq.

- Bu istidə o sacın oduna yaxın durmaq olar, ay nənə? - Murtuza dilləndi.

- Allahın istisidi, ay bala, neyləmək olar, çörək də bişirmək lazımdır. Gəl otur, indi yemək də hazır olacaq.

- Yemişəm, nənə, evdən gəlirəm. Elə gəldim ki sənə dəyim.

- Tezdənnən Xasay fikrimdən çıxmır. Allah axırın xeyir eləsin. Bu uşaq da xeyirli məktəbini bitirib gəlsəydi, canım rahatlanardı. Bilərdim ki, yenə gözümün qabağındadı.

- Bu günlərdə gəlməlidi, nənə, texnikumun son günləridi. Bu gün-sabahlıqdı. Bir də gördün qapın döyüldü. Telefon da yoxdur ki, bir adam zəng vurub arada hal-xoş etsin, - deyə Murtuza qayğılı-qayğılı cavab verdi. - Darıxma ay arvad, sənin bu əziyyətin yerdə qalmaz. Xasay gələr, kənddə briqadirdən-zaddan bir işə düzələr. Bilikli-bacarıqlı oğlandı, namxuda. Onu bilirəm ki, məktəbdə ən yaxşı oxuyanlardandır.

Həyətlərinin taxta qapısının cırıltısı söhbətlərini yarımçıq kəsdi. Murtuza pəncərədən çölə baxıb:

- Gəldi, ay nənə, budur, Xasay da gəldi. - dedi və sevincini gizlədə bilmədi.

Fatma ana beş uşağı elə çətinliklə böyütmüşdü ki, övladlarının səsi gələndə ürəyi titrəyirdi. Tələsik hər ikisi çölə çıxdılar. Anasının gözləri dolmuş, sevincindən nitqi tutulmuşdu. Artıq oğlu texnikumu bitirib sağ-salamat evə gəlmişdi. Qayıdıb kəndlərində briqadir işləyəcəkdi.

Xasay əlindəki çamadanı yerə qoyub qardaşı ilə qucaqlaşıb görüşdü, sonra qoluna keçirdiyi boz pencəyini qardaşına uzadıb anasının boynuna sarıldı. Fatma nənəni qəhər boğduğundan danışa bilmirdi. Xasayı niyəsə bütün övladlarından çox istəyirdi Fatma ana. Oğlu Xasayın qayğıkeşliyi, insansevərliyi, mehribançılığı təkcə qohum-əqraba yanında deyil, bütün kənd camaatı arasında hörmət qazandırmışdı ona. Kirovabada təhsil aldığı vaxtlarda anasına yük olmamaq üçün axşamlar zavoda işləyir, gündüzlər məktəbdə oxuyurdu. O, bilirdi ki, lap körpə yaşlarından anası onları necə çətinliklə, necə əzab-əziyyətlə böyüdüb. Ailənin bu çətin vəziyyətindən çıxış yolunu ancaq oxumaqda görürdü. Yalnız yaxşı təhsillə bütün bu əziyyətlərə son qoymaq olardı! Ona görə də, gecəsi-gündüzü yox idi. Əgər evdən təhsil üçün çıxmışdısa, deməli mütləq əziyyət çəkib, hazırlaşıb bir tərəfə çıxmalıydı.

Üç il idi ev-eşiklərindən ayrı düşmüşdü...

- Ay nənə, səni kəndin bu istisi lap yandırıb ki, - deyə Xasay anasını hey qucaqlayırdı.

Fatma nənə:

- Eybi yox, ay bala, keç içəri.

Köhnə çamadanı qardaşı Murtuzaya uzadıb qolunu anasının boynuna salaraq evə keçdilər. Bacıları Xanım və Şüşən havadan iyi almış kimi özlərini o saat anasıgilə yetirdilər. Qardaşlarının məktəbi bitirib qayıtması onları elə sevindirirdi ki! Xanımın Xasayı qucaqlayıb ağlamağı hamını mütəəssir elədi.

Artıq günortadan keçirdi. Xasay anasının bişirdiyi yeməkdən yeyə-yeyə, fikri qardaş-bacılarının, anasının gün-güzəranında, dolanışıq üçün necə əziyyət çəkmələrində idi. O, bütün bu çətinliklərin günahını niyəsə özündə görürdü.

Şüşən Xasayın boynunu qucaqlayıb:

- Bircə qaldı qardaşımı evləndirmək, - bərk-bərk özünə sıxdı. - İndi kələsərə getməliyəm, qardaş, axşam gələndə oturub doyunca söhbətləşərik. - dedi, yaylığını da götürüb evdən çıxdı.

- Dur sən də bir az uzan, istirahət elə, ay oğul, onsuz Murtuzagil də getməlidi işə.

- Hə qardaş, mən də Xanımla gedirəm kələsərə, axşam qayıdanda dərdləşərik, - deyə qardaşı Murtuza və Xanım ayağa qalxdılar.

Qapının kəndarında bacısı Xanım geri dönüb qardaşını bir də qucaqladı:

- Qağa, bax, Gülügilə getsən, məni də apar ha. Çoxdandı Veysəlliyə getmirəm. İndi yəqin Cülünün də burnunun ucu göynəyir səndən ötrü.

Xasayın bir bacısı Cəbrayılın Veysəlli kəndində idi. O, əlini bacısının başına çəkərək:

- Yaxşı, bacı, getsəm mütləq səni də aparacam. - dedi. Sağollaşdılar.

Bacı-qardaşlar getdikdən sonra ana-bala bir xeyli söhbət etdilər. Bir az uzanıb dincəlsin deyə Fatma ana oğluna yer hazırlamaq üçün yan otağa keçdi.

Xasay qardaş-bacıları ilə görüşəndən sonra, onların ailəsi ilə bağlı, ailəsinin gələcəyi ilə bağlı narahatçılığı birə-beş artmışdı. Onu gələcəkdə hansı işdə işləyəcəyi, anasını, qohum-əqrabanı bu çətinlikdən necə çıxaracağını düşünürdü.

Yan otaqdan çıxan anası Xasayın boynunu qucaqlayıb niyə fikirli olduğunu soruşdu:

- Qadan alım ay bala, niyə bikefsən. Şükür Allaha məktəbi də bitirib gəldin. Bir neçə gün dincəl, sonra bir iş də tapıb işləyərsən. Yaxşı ki, bu texnikumu bitirdin, oğul. Arzum var idi ki, sən institut oxuyasan. Qismət beləymiş...

- Ay nənə, mənim instituta girməyim üçün tələb olunan iş yaxşı oxumaqdı, o da, şükür Allaha hamıdan yaxşı oxuyuram. Bax gör kənddə nə qədər texnikum bitirən var. Ən yüksək işləri də briqadirlikdi. Ondan o tərəfə gedə bilmirlər. Amma mən institut bitirsəm!..

Fatma nənə maraqla oğlu Xasaya tərəf gəldi:

- İnstituta girə bilərsən?!

- Niyə girmirəm, ay nənə. Girərəm də, oxuyaram da. Ancaq bəs sən? Səni necə tək qoyum? Bu qədər əziyyət çəkmisən. Bacılarım yaxınında olsalar da, onların da öz ailəsi, uşağı var, baxma. Mən böyümüşəm ki, sənin əziyyətini, nazını çəkim, qulluğunda durum.

Fatma nənə yaxınlaşıb Xasayın böyründə oturdu, bir əlinin oğlunun dizinə qoyub dedi:

- Oğul, siz artıq, allaha şükür, böyümüsünüz, əziyyətiniz azalıb. Sənin oxumağın üçün mən on il də əziyyət çəkərəm.

Anasının bu sözləri Xasaya ruh verdi. Xasay özü də bilirdi ki, institut oxumaq onun gələcəyinə bir qapıdır. Hələ məktəb vaxtlarından ən böyük arzusu institut oxumaq olub. İndi buyur, qoca anasının onun oxuması, onun savadlı olması üçün hər cür əziyyətə qatlaşmağa hazırdı!..

O, Kirovabaddan özü ilə gətirdiyi, içərisində kitabları və paltarları olan çamadanı hələ açmamışdı. Anası ilə bu barədə xeyli söhbət etdikdən sonra qərara gəldi ki, mütləq ali məktəb oxumalıdı. İnstituta qəbul imtahanlarına sayılı günlər qalırdı. Əgər fikri qəti idisə, məsələni gecikdirmək olmazdı. Elə günü sabah Kirovabada qayıtmalıydı. Təkcə qalırdı anasının xeyir duası!

- Allah xeyir versin, başına dönüm, get, Allah amanında, yolun açıq olsun!

Səhəri gün Xasay anasının xeyir-duası ilə Kirovabada yollandı. Bu dəfə daha böyük arzularla və daha böyük istəklə!

Fatma ana oğlunun dalınca su atıb həyətə döndü, tut ağacının kölgəsində ayaq üstə xeyli dayandı. Ürəyi fəxarət hissi ilə doluydu. Arzusu, sevinci aşıb-daşırdı. İnanırdı ki, oğlunun tutduğu bu yol onu gələcəkdə neçə yeni pillələrə, zirvələrə aparacaq. Onların birgə verdikləri bu qərar oğlunun taleyinə, həyatına əbədi çıraq kimi nur çiləyəcək. Vaxt gələcək!..

Fatma ana qoca tut ağacı tək kölgə salıb yaşlaşırdı...